# Qərb bölgəsində Zəfər Günü



## Gəncə

Respublikanın hər yerində olduğu kimi, Gəncədə də 8 Noyabr Zəfər Günü böyük təntənə ilə qeyd olundu. Şəhərin "İstiqlal" parkında təşkil olunan bayram tədbirində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk, Milli Məclisin deputatları, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, şəhid ailələri və Vətən müharibəsi iştirakçıları, sakinlər iştirak etdilər.

Ümumşəhər tədbiri Azərbaycan Respublikasının Dövlət himninin səslədirilməsi ilə başlandı. Azərbaycanın müstəqilliyi, süverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik etdi və dedi ki, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 ilə yaxın davam edən işğala cəmi 44 gündə son qoydu, düşməni əzəli torpaqlarımızdan qovdu. Vətən müharibəsi dövründə Gəncə şəhəri də çətin günlər yaşadı, raket atəşlərinə məruz qaldı, itkilər verdi, lakin sınmadı, geri çəkilmədi. Əksinə, şəhər sakinləri Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşdilər. Düşmən bir daha Azərbaycan xalqının əzminin, qəhrəmanlığının şahidi oldu.

Sonra "İstiqlal" parkında inşa edilən "Memorial Abidə Kompleksi"nin açılışı oldu. Qeyd edək ki, Gəncə şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi məqsədilə inşa edilən bu kompleksin tikintisinə cari ilin may ayında başlanılıb. Ümumi sahəsi 1200 kvadratmetr olan kompleks dəmir və betondan hazırlanmış lövhələrdən ibarətdir. Uzunluğu 50, hündürlüyü 5 metr olan lövhələrin üzərinə, ümumilikdə, 600-ə yaxın şəhidin şəkli və müxtəlif atributlar həkk olunub. "Memorial Abidə Kompleksi"nin bir hissəsi olan qalib Azərbaycan əsgəri heykəlinin hündürlüyü isə postamentlə birlikdə 5 metr təşkil edir. Burada Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə iki bulaq da inşa edilib. Bulaqların hər birinin uzunluğu 6,1, eni 1,3, hündürlüyü isə 2,2 metrdir. Gəncə Şəhər İcra İcra Hakimiyyəti tərəfindən inşa etdirilən abidənin müəllifi Azərbaycan Respublikasının Əməkdar rəssamı Şərif Şərifovdur.

"Memorial Abidə Kompleksi" ilə tanışlıqdan sonra şəhid ailələrinin üzvlərinə söz verildi. Şəhid atası Miryunis Hüseynzadə, şəhid anası Brilyant Əsgərova, şəhid yoldaşı Əfsanə Məmmədova, şəhid övladı Təqi Əsgərli çıxış edərək Azərbaycan Ordusunun qazandığı şanlı qələbədən, igid oğullarımızın qəhrəmanlıqlarından danışdılar. Onlar dövlət tərəfindən şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğını qeyd etdilər, buna görə ölkə başçısı, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər.

Türkiyənin Gəncədəki Baş konsulu Zeki Öztürk çıxış edərək, 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbə münasibətilə Azərbaycan xalqını təbrik etdi. Dedi ki, Türkiyə və Azərbaycan əsrlər boyu dərin tarixi dostluq və qardaşlıq kökləri ilə bağlı olan iki dövlət, tək millətdir. Daim qardaş ölkə Azərbaycanla həmrəylik göstərən Türkiyə haqq savaşında da onun yanında oldu.

Çıxışlardan sonra Gəncə Dövlət Dram Teatrı tərəfindən "Azərbaycan, Zəfər günün mübarək!" adlı ədəbi-bədii kompozisiya nümayiş olundu. Gənc könüllülərin iştirakı ilə sülh rəmzi olan 44 göyərçin havaya buraxıldı. "İstiqlal" parkında təşkil olunan bayram tədbirindən sonra şəhər rəhbərliyi və qonaqlar Heydər Əliyev Park-Kompleksinə gəldilər. Burada Zəfər Gününə həsr olunan ağacəkmə aksiyası keçirildi. Həmin gün şəhər rəsmilərinin, ictimaiyyət nümayəndələrinin və gənclərin iştirakı ilə, ümumilikdə, 2500 eldar şamı və digər həmişəyaşıl ağaclar əkildi.

Zəfər Günü münasibətilə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasında təşkil olunan konsert proqramı da yaddaqalan oldu. Şəhər icra hakimiyyətinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin təşkilatçılığı ilə baş tutan konsertdə şəhər rəhbərliyi, şəhid ailələri, Vətən müharibəsi iştirakçıları və ictimaiyyət nümayəndələri iştirak etdi.

Sonda Gəncənin Heydər Əliyev adına Baş meydanında Zəfər Gününə həsr olunan möhtəşəm atəşfəşanlıq oldu.



## Goranboy

Tədbirdə rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, şəhid ailələri və qazilər, rayon ictimaiyyətinin fəalları, məktəblilər və gənclər, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak etdi. Əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olundu. Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlandı və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

RİH-nin başçısı Məhərrəm Quliyev çıxış edərək dedi ki, işğal altındakı ərazilərimizin azad edilməsi uğrunda ötən il sentyabrın 27-dən başlayan və böyük Zəfərlə yekunlaşan, dünya hərb tarixinə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə çevrilib. İcra hakimiyyətinin başçısı yeni şanlı tarixin haqq və ədalət nümunəsi olduğunu vurğulayaraq, möhtəşəm qələbə müjdəsini xalqımıza yaşatdığı üçün müzəffər Ali Baş Komandana və rəşadətli Azərbaycan Ordusuna dərin minnətdarlıq hissini diqqətə çatdırdı.

Tədbir çərçivəsində 44 günlük Vətən müharibəsi dövründə döyüş meydanında və arxa cəbhədə mövcud vəziyyət barədə reallıqları ölkə və dünya ictimaiyyətinə operativ çatdıran bir qrup kütləvi informasiya vasitələrinin nümayəndələri rayon icra hakimiyyəti başçısının Fəxri fərmanları ilə təltif olundular.

Tədbirdə rayon mədəniyyət evinin incəsənət ustalarının və məktəblilərin ifasında ədəbi-bədii kompozisiya, idmançıların göstəriciləri, gənc rəssamaların əl işlərindən ibarət rəsm sərgisi və digər sənət nümunələri nümayiş etdirildi. Tədbirdən sonra Zəfər Günü münasibətilə rayon ərazisində müxtəlif növ 400 ədəd ağac əkildi.

## Naftalan



Naftalan şəhərində keçirilən tədbirdə ŞİH-nin başçısı Vüqar Novruzov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri, ziyalılar və gənclər iştirak edib.

Ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olundu, önünə tər gül dəstələri düzüldü, ruhu böyük ehtiramla yad edildi.

Daha sonra torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsinə ucaldılmış Memorial Xatirə Kompleksi ziyarət olundu, gül dəstələri düzüldü, ruhlarına dualar oxundu.

Tədbir Heydər Əliyev meydanında təşkil olunmuş "Vətənpərvərlik" adlı rəsm sərgisinə baxış keçirildikdən sonra Heydər Əliyev Mərkəzinin akt zalında davam etdirildi.

Şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunduqdan sonra şəhər icra hakimiyyətinin başçısı çıxış edərək dedi ki, ötən il sentyabrın 27-dən başlayan, işğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə çevrilib. Vüqar Novruzov Qələbə sevincini xalqa yaşatdığı üçün müzəffər Ali Baş Komandana və rəşadətli Azərbaycan Ordusuna dərin minnətdarlığını xüsusi qeyd edib.

Tədbirdə çıxış edən digər natiqlər qalib xalqımızın dövlət başçımızın ətrafında sıx birləşərək bütün dünyaya öz gücümüzün, mətinliyimizin, mübarizliyimizin nümayiş etdirildiyini vurğuladılar.

Ölkə Prezidentinin sərəncamları ilə ölümlərindən sonra təltif olunmuş Aslanov Bəxtiyar İlqar oğlunun "Vətən uğrunda" medalı, Adıgözəlov Fərid İlqar oğlunun və Cəfərov Elyəddin Zöhrab oğlunun "Cəsur Döyüşçü" medalları onların ailə üzvlərinə təqdim edildi.

Sonda məktəblilərin ifasında ədəbi-bədii kompozisiya dinlənildi.

## Qazax

Respublikamızın hər yerində olduğu kimi 8 Noyabr Zəfər Günü Qazax rayonunda da silsilə tədbirlərlə qeyd edildi. Rayonda keçirilən bu tədbirlərə şəhərin mərkəzində yerləşən Şəhidlər xiyabanını ziyarətlə start verildi. Torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi ehtiramla anıldı.

Sonra şanlı Zəfərə həsr olunmuş yürüş təşkil edildi. Şəhərin girişindən başlanan yürüş Vətən müharibəsi şəhidlərinin xatirəsinə ucaldılmış Abidə Kompleksinin qarşısına kimi davam etdi. Yürüşdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, aparatın məsul işçiləri, Milli Məclisin deputatı Ülviyyə Ağayeva, "Qazax" Xeyriyyə İctimai Birliyi İdarə Heyətinin sədri İlham Pirməmmədov, "Şərq" qəzetinin Baş redaktoru Akif Aşırlı, Bakı Dövlət Universitetinin Qazax filialının, Qazax Dövlət Sosial-İqtisadi Kollecinin müəllim və tələbələri, gənclər, Vətən müharibəsi şəhidlərinin ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etdi.

Bayram əhval-ruhiyyəli yürüşdə "Şəhidlər ölməz, Vətən bölünməz!", "Qarabağ Azərbaycandır!", "Qarabağ bizimdir!", "Bir millət, iki dövlət, Azərbaycan–Türkiyə", "Yaşasın Azərbaycan!", "Yaşasın Ali Baş Komandan!" şüarları səsləndirildi. Əllərində üçrəngli Azərbaycan və qardaş Türkiyə dövlətinin bayraqlarını, şanlı Zəfərimizə həsr olunmuş plakatları tutan rayon gəncləri 8 Noyabr Zəfər Gününü böyük coşqu ilə qeyd etdi.

## Tovuz




Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə "Ayan Palace" otelində Vətən müharibəsi şəhidləri ailələrinin iştirakı ilə Zəfər Gününə həsr olunmuş tədbirdə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyətin nümayəndələri iştirak etdi.

Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olundu, möhtəşəm Zəfərə həsr olunmuş videoçarx nümayiş etdirildi.

Rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək dedi ki, bu gün Azərbaycan xalqı möhtəşəm Zəfər Gününü qeyd edir. Xalqımızın qalibiyyət rəmzi olan Şuşa şəhərinin noyabrın 8-də, 28 ildən sonra əsarətdən qurtarılması müharibənin taleyində həlledici rol oynadı. Müzəffər Ali Baş Komandanımız İlham Əliyev döyüş meydanındakı qətiyyətini, gücünü, qüdrətini danışıqlar masasında da davam etdirdi, düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi. Kəlbəcər, Ağdam, Laçın əraziləri Ali Baş Komandanımızın sayəsində bir güllə belə atılmadan Azərbaycana qaytarıldı. Güclü xalq–ordu birliyi və Ali Baş Komandanın məharətli sərkərdəliyi ilə həyata keçirilən "Dəmir Yumruq" əməliyyatı nəticəsində torpaqlarımız işğaldan azad olundu.

Qürurverici haldır ki, Tovuzun yüzlərlə oğlu da Azərbaycanın haqq savaşında igidlik göstərərək, orden və medallarla təltif olundu. Bunlardan iki nəfəri Cabbarov Orxan Rövşən oğlu (ölümündən sonra), Əhmədov Yaşar Mirağa oğlu ən yüksək fəxri ada – Vətən Müharibəsi Qəhrəmanı adına layiq görüldü.

İcra hakimiyyətinin başçısı tarixi Qələbə və "Dövlət Bayrağı Günü" münasibətilə tədbirə toplaşanları təbrik etdi. Sonra Yeni Azərbaycan Partiyasının Tovuz rayon təşkilatının sədri Məzahir Bayramov, Vətən Müharibəsi Qəhrəmanı şəhid Orxan Cabbarovun anası Yeganə Rüstəmova, şəhid Cavid Hüseynovun atası Natiq Hüseynov, şəhid Elmar Şirinovun anası Amana Nəsirova, şəhid Ruslan Quliyevin anası Səxavət Əliyeva, Şəhid Elmar Əhmədovun anası Xoşqədəm Əhmədova, şəhid Cavid Hüseynovun anası Sərəngül Hüseynova, şəhid Anar Hüseynovun yadigarı Nurlan Hüseynov çıxış etdilər. Şəhid ailələri göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə dərin minnətdarlıqlarını bildirdilər.

Məmməd Məmmədov Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təltif olunmuş Vətən müharibəsi şəhidlərinin medallarını onların ailə üzvlərinə təqdim etdi.

Tədbir respublikanın və rayonun incəsənət ustalarının geniş konsert proqramı ilə davam etdirildi.

## Gədəbəy

Zəfər Günü münasibətilə rayonda yürüş təşkil olundu.

Yürüşdə icra hakimiyyətinin nümayəndələri, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə, təşkilatların kollektivləri, "N" saylı hərbi hissənin zabitləri və əsgərləri, şəhid ailələri, qazilər, Vətən müharibəsi iştirakçıları və rayon sakinləri iştirak etdilər.

Bu aksiya başa çatdıqdan sonra Heydər Əliyev mərkəzinin qarşısındakı Bayraq Meydanında yürüş iştirakçılarının iştirakı ilə bayram tədbiri keçirildi.

Tədbirdə rayon icra hakimiyyətinin başçısı vəzifəsini icra edən Natiq Nağıyev çıxış edərək dedi ki, rəşadətli Azərbaycan əsgər və zabitləri addım – addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis – istehkam sistemlərini yarıb keçdi, torpaqlarımızı qəhrəman oğullarımızın qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistan öz məğlubiyyətini etiraf etməsi kapitulyasiyası ilə nəticələndi. Bu zəfərdə böyük pay sahibi olan şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyir, qazilərimizə uca tanrıdan şəfalar diləyirik.

Tədbirdə şəhid övladları və şəhid ailələrinin üzvləri də çıxış etdilər, onlara göstərilən diqqət və qayğıdan danışdılar.

Daha sonra tədbir rayon mədəniyyət mərkəzi tərəfindən hazırlanmış konsert proqramı ilə davam etdirildi.

*Hamlet QASIMOV,*
*"Xalq qəzeti"nin bölgə müxbiri*